Avtomobil bazari: oktyabr 2026. Median qiymət artıb, kütləvi modellərdə qiymətlər sabitləşib

Oktyabrda turbo.az saytında satışa çıxarılan avtomobillərin median qiyməti 19 500 AZN olub və sentyabrla müqayisədə 3,7% artıb. Bu artımın böyük hissəsi avtomobillərin bahalaşması ilə deyil, satışa çıxarılan avtomobillərin tərkibinin dəyişməsi ilə bağlıdır. Eyni kütləvi modellər üzrə qiymətlər cəmi 0,4% artıb, hər iki ayda satışda olan eyni avtomobillərin qiyməti isə orta hesabla 1,5% endirilib.

Əsas göstəricilər

Göstərici	Oktyabr 2026	Sentyabr 2026	Dəyişmə
Elanların sayı	37 531	40 373	−7,0%
Median qiymət	19 500 AZN	18 800 AZN	+3,7%
Orta qiymət	30 089 AZN	29 515 AZN	+1,9%
Dəyişən struktur indeksi	112,7	108,7	+3,7%
Sabit struktur indeksi	104,2	103,7	+0,4%
Median buraxılış ili	2013	2013	dəyişməyib
Median yürüş	190 000 km	193 000 km	−3 000 km

İndekslər: dekabr 2025 = 100. Qiymətlər elan qiymətləridir. Mənbə: turbo.az elanları, AQP hesablamaları.

Median niyə artdı

Median qiymət bazarın ümumi səviyyəsini göstərir, lakin o, həmin ay hansı avtomobillərin satışa çıxarılmasından da asılıdır. Oktyabrda elanların sayı 7,0% azalıb və bu azalma bazarın müxtəlif seqmentlərinə eyni dərəcədə təsir etməyib. Ucuz seqmentdə üstünlük təşkil edən LADA (VAZ) elanlarının payı 9,4%-dən 8,8%-ə enib, Kia elanlarının sayı 3 042-dən 2 129-a, payı 7,5%-dən 5,7%-ə azalıb. Mercedes, Hyundai, Toyota və BMW elanlarının payı isə artıb (Qrafik 2). Daha bahalı avtomobillərin payı artdıqda ayrı-ayrı modellərin qiyməti dəyişməsə belə median yüksəlir.

Bu təsiri ayırmaq üçün AQP iki indeks hesablayır. Dəyişən struktur indeksi bütün elanların median qiymətini izləyir və oktyabrda 112,7 olub. Sabit struktur indeksi isə ən çox təklif olunan 9 kütləvi marka-modelin qiymət dəyişməsini sentyabr çəkiləri ilə ölçür və 104,2 təşkil edib. Birinci indeks ay ərzində 3,7%, ikincisi 0,4% artıb. Aradakı 3,3 faiz bəndi fərq elan tərkibinin dəyişməsi ilə izah olunur.

Eyni nəticəni başqa göstərici də təsdiqləyir. Həm sentyabrda, həm oktyabrda satışda olan 7 156 elanın 48,5%-ində qiymət dəyişib: 39,6%-ində endirilib, cəmi 8,9%-ində artırılıb. Bu elanlar üzrə qiymət orta hesabla 1,5% azalıb. Satılmayan avtomobilin qiymətinin tədricən endirilməsi adi haldır, ona görə bu göstərici bazarın səviyyəsini deyil, satış prosesini əks etdirir. Lakin o, mövcud təkliflərin bahalaşmadığını aydın göstərir.

Baza dövrü olan dekabr 2025 ilə müqayisədə elanların median qiyməti 12,7%, eyni kütləvi modellərin qiyməti isə 4,2% yüksəlib. Deməli, dekabrdan bəri medianın artımı da əsasən bazar tərkibinin dəyişməsi ilə bağlıdır.

Qrafik 1. AQP avtomobil bazarı indeksləri (dekabr 2025 = 100)



Mənbə: AQP Avtomobil bazarı indeksi, oktyabr 2026.

2. Kütləvi modellərdə qiymətlər

Sabit səbətə daxil olan 9 marka-modeldən beşində median qiymət artıb, üçündə azalıb, birində dəyişməyib. Ən çox artım Hyundai Sonata (2,4%) və Ford Fusion (1,6%) üzrə, ən çox azalma Hyundai Santa Fe (1,4%) üzrə qeydə alınıb. Sentyabrda bahalaşan Kia Sorento və Hyundai Santa Fe oktyabrda bir qədər ucuzlaşıb. Çəkili nəticə 0,4% təşkil edir: sentyabrdakı 1,1% artımdan sonra kütləvi seqmentdə qiymətlər sabitləşib.

Marka və model	Median, sentyabr	Median, oktyabr	Dəyişmə
Hyundai Sonata	23 200 AZN	23 750 AZN	+2,4%
Ford Fusion (North America)	18 200 AZN	18 500 AZN	+1,6%
Opel Astra	9 300 AZN	9 400 AZN	+1,1%
Ford Transit	18 800 AZN	19 000 AZN	+1,1%
Hyundai Elantra	21 400 AZN	21 500 AZN	+0,5%
LADA (VAZ) 2107	5 500 AZN	5 500 AZN	0,0%
Kia Sorento	34 900 AZN	34 800 AZN	−0,3%
Chevrolet Cruze	13 400 AZN	13 300 AZN	−0,7%
Hyundai Santa Fe	28 900 AZN	28 500 AZN	−1,4%
Çəkili nəticə (sabit struktur indeksi)			+0,4%

Çəki kimi sentyabr elan sayları götürülüb (cəmi 7 874 elan). Mənbə: AQP hesablamaları.

3. Bazarın quruluşu: oktyabr kəsimi

Oktyabrda bazarın əsas xüsusiyyətləri belədir:

- Qiymət. Elanların yarıdan çoxu (51,2%) 20 000 AZN-dən ucuzdur, 22,9%-i isə 10 000 AZN-dən ucuzdur. 50 000 AZN və daha baha avtomobillərin payı 13,0% təşkil edir.
- Yaş. Median avtomobil 2013-cü il buraxılışlıdır, yəni 13 yaşındadır. 13 yaş və daha köhnə avtomobillər elanların 52,2%-ni, 3 yaşadək avtomobillər isə 16,4%-ni təşkil edir.
- Yeni və işlənmiş. Yeni avtomobillər elanların 8,2%-ni təşkil edir. Onların median qiyməti 44 300 AZN, işlənmiş avtomobillərinki 17 900 AZN-dir.

- Region. Elanların 66,9%-i Bakıdandır. Median qiymət Bakıda 23 900 AZN, Bakıdan kənarda 12 500 AZN-dir. Digər şəhərlərdən ən çox elan Sumqayıt (6,6%) və Gəncədən (4,3%) verilib.
- Yanacaq. Benzinli avtomobillərin payı 66,7%, dizel avtomobillərin payı 20,4%-dir. Hibrid, plug-in hibrid və elektrik avtomobilləri birlikdə elanların 12,9%-ni təşkil edir. Elektromobillər üzrə 496 elan var (1,3%), onların median qiyməti 50 750 AZN-dir.
- Ban növü və sürətlər qutusu. Sedanlar elanların 43,9%-ni, 5 qapılı SUV-lar 29,6%-ni təşkil edir. Avtomatik qutulu avtomobillərin payı 72,2%, mexaniki qutulu avtomobillərin payı 27,8%-dir.
- Markalar. Ən çox elan Mercedes (15,1%), Hyundai (10,9%) və LADA (VAZ) (8,8%) markalarına aiddir. Çin markalarından Changan 1 463 elanla doqquzuncu yerdədir, BYD üzrə 348, Geely üzrə 231 elan var.

Qrafik 2. Ən çox elanı olan 10 marka: elanların ümumi sayında pay



Struktur göstəriciləri oktyabr bazasındakı bütün 37 531 elan üzrə hesablanıb (motosiklet və kommersiya nəqliyyatı daxil olmaqla). Mənbə: turbo.az elanları, AQP hesablamaları.

4. Avtomobilin qiymətini nə müəyyən edir

Hedonik model marka-model, mühərrik və digər xüsusiyyətlər nəzərə alınmaqla avtomobilin yaşının, yürüşünün, sürətlər qutusunun və texniki vəziyyətinin qiymətə ayrıca təsirini ölçür. Oktyabr modeli ən aktiv 120 marka-model üzrə 25 063 elan əsasında qurulub və qiymət fərqlərinin 94%-ni izah edir ($R^2 = 0{,}940$).

Amil	Qiymətə təsir	95%-lik interval	Sentyabr
Əlavə 1 istismar ili	−5,8%	−6,5% ilə −5,1%	−5,7%
Əlavə 1 000 km yürüş	−0,037%	−0,047% ilə −0,028%	−0,037%
Mexaniki sürətlər qutusu (avtomatla müqayisədə)	−8,3%	−12,2% ilə −4,1%	−7,5%
Vuruğu yoxdur, rənglənib	−0,2%	−1,0% ilə +0,6%	+0,7%
Vuruğu var, rənglənib	−7,5%	−10,2% ilə −4,8%	−11,4%
Vuruğu var, rənglənməyib	−23,1%	−27,8% ilə −18,1%	−27,4%

Texniki vəziyyət üzrə təsirlər “vuruğu yoxdur, rənglənməyib” kateqoriyası ilə müqayisədə verilib. Sentyabr göstəriciləri sentyabr məlumatları üzrə eyni modellə hesablanıb. Sadə misal: 20 000 AZN dəyərində avtomobil üçün əlavə bir istismar ili qiyməti təxminən 1 160 AZN, əlavə 10 000 km yürüş isə təxminən 75 AZN azaldır. Mexaniki qutulu avtomobil eyni xüsusiyyətli avtomatik qutulu avtomobildən orta hesabla 8,3% ucuz təklif olunur.

Rənglənmiş, lakin vuruğu olmayan avtomobillər üzrə qiymət fərqi statistik baxımdan sıfıra yaxındır. Vuruğu olan avtomobillər isə nəzərəçarpacaq dərəcədə ucuzdur: vuruqlu və rənglənmiş avtomobil 7,5%, vuruqlu, lakin rənglənməmiş avtomobil 23,1% aşağı qiymətə təklif olunur. Bu kateqoriyalarda elanların sayı azdır (hər birində 400 ətrafında), ona görə nəticələr aydan aya dəyişə bilər: kənar qiymətli elanlar çıxarıldıqda təsir müvafiq olaraq 6,0% və 17,5% olur.

Əsas əmsallar sentyabrdakı səviyyəyə yaxındır. Yaşın və yürüşün təsiri praktik olaraq dəyişməyib, mexaniki qutu üzrə fərq 7,5%-dən 8,3%-ə artıb, lakin bu dəyişmə statistik xəta həddindədir.

5. Nəticələr və tövsiyələr

- Oktyabrda median qiymətin artması avtomobillərin bahalaşdığını deyil, əsasən satışa çıxarılan avtomobillərin tərkibinin dəyişdiyini göstərir.
- Kütləvi modellərdə qiymətlər sentyabrdakı artımdan sonra sabitləşib, mövcud elanlarda isə qiymət endirimi üstünlük təşkil edir.
- Alıcı və satıcılara qiyməti ümumi medianla deyil, eyni marka-model, buraxılış ili, yürüş və texniki vəziyyəti olan avtomobillərin qiymətləri ilə müqayisə etmək tövsiyə olunur.
- Qiymətləndiricilərə bazar tendensiyasını sabit struktur indeksi və hedonik əmsallarla birlikdə nəzərə almaq tövsiyə olunur. Qəza tarixçəsi üzrə düzəlişdə bir neçə ayın göstəricilərinin birlikdə nəzərə alınması məqsədəuyğundur. Avtomobil qiymətinə düzəliş əmsalları da oktyabr məlumatları əsasında yenilənib.